ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

Akademik etika

Təlimat

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

Akademik etika nədir?

Akademik etika – elmi və akademik fəaliyyət zamanı dürüst, obyektiv, məsuliyyətli və şəffaf davranışı təmin edən, tədqiqatçıların, iştirakçıların və digər tərəflərin hüquq və maraqlarının qorunmasına yönəlmiş etik prinsip və qaydalar toplusudur.

Akademik etika dedikdə aşağıdakılar nəzərdə tutulur:

1 Akademik dürüstlük

Tədqiqatın bütün mərhələlərində dürüst olmaq, saxtalaşdırma, uydurma və plagiata yol verməmək.

2 Müəllif etikası

Yalnız elmi işə real töhfə verən şəxsləri müəllif kimi göstərmək və başqalarının elmi əməyini mənimsəməmək.

3 Tədqiqat iştirakçıları ilə bağlı etik qaydalar

İştirakçıların hüquq, ləyaqət və məxfiliyini qorumaq, tədqiqatda iştirakla bağlı razılıq almaq.

4 Məlumatların dürüst şəkildə təqdim edilməsi



Məlumatları olduğu kimi, təhrif etmədən dəqiq və tam şəkildə təqdim etmək.

5 Elmi nəşr etikası

Elmi nəşr prosesində dürüstlük, şəffaflıq və ədalət prinsipinə əməl etmək.

6 Maraqların toqquşmasının qarşısının alınması

Şəxsi, maddi, peşəkar və ya digər maraqların tədqiqatın obyektivliyinə təsir etməsinə yol verməmək.

Akademik etika nə üçün vacibdir?

Akademik etika və akademik dürüstlük

Akademik etika

- Ümumi anlayışdır.
- Tədqiqatla bağlı bütün etik qaydaları əhatə edir.

Akademik dürüstlük

- Akademik etikanın əsas komponentidir.
- Plagiata yol verilməməsi, istinadların düzgün verilməsi, nəticələrin təhrif edilməməsi və s. kimi qaydaları əhatə edir.

Akademik dürüstlüyün pozulması halları

Akademik dürüstlüyün pozulması halları adətən 3 cür qruplaşdırılır.



Plagiat (Plagiarism)



ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

Uydurma (Fabrication)

1. Mövcud olmayan məlumatı və ya nəticəni varmış kimi göstərmək

2. Tədqiqatda iştirak etməmiş şəxsləri iştirakçı kimi göstərmək

3. Heç bir real mənbədə olmayan sitatı və ya məlumatı mövcudmuş kimi göstərmək

4. Oxunmamış və ya əlçatmayan mənbədə olan məlumatları mənbə ilə tanış olunmuş kimi təqdim etmək

5. Aparılmamış eksperimentin və ya digər tədqiqat prosedurunun həyata keçirildiyini göstərmək

6. Mövcud olmayan sorğu cavablarını, müsahibə transkriptlərini və ya müşahidə qeydlərini yaratmaq

7. Real məlumatlara əsaslanmadan statistik nəticələr, cədvəllər və qrafiklər hazırlamaq

8. Tədqiqatın nəticələrini dəstəkləmək üçün uydurma rəqəmlər və faizlər təqdim etmək

9. Tədqiqatda istifadə edilməyən məlumat mənbələrini və ya məlumat bazalarını istifadə olunmuş kimi göstərmək

10. Süni intellektdən əldə edilən uydurma mənbəni, müəllifi, məqaləni, DOI-ni və s. real mənbə kimi təqdim etmək

Saxtalaşdırma (Falsification)

1 Nəticəni «mənalandırmaq» üçün təhrif etmək (datalarla oynamaq)



Tədqiqatın məqsədinə çatmaq üçün nəticələr olduğundan daha güclü göstərilir.

2 Məlumatı seçməli şəkildə təqdim etmək



Yalnız istənilən nəticəni dəstəkləyən məlumatlar seçilərək təqdim edilir.

3 Problemli görünən məlumatları silmək

ƏSL DATA

№	Nəticə
1	23
2	25
3	24
4	8
5	22
6	24

Problemli məlumat

SİLİNDİKDƏN SONRA

№	Nəticə
1	23
2	25
3	24
5	22
6	24

Nəticəni zəifladən və ya uyğun olmayan məlumatlar silinir.

4 Tədqiqat prosesini təhrif etmək

ƏSL PROSES

Məlumatlar üz-üzə müsahibə vasitəsilə toplanıb.

HESABATDA GÖSTƏRİLƏN

Məlumatlar anonim onlayn sorğu vasitəsilə toplanıb.

Burada məlumatların özü dəyişdirilmir; məlumatın necə və hansı şəraitdə toplandığı qəsdən yanlış göstərilir. Bu isə tədqiqat prosesinin təhrif edilməsidir.

5 Müsahibələri yönləndirmək

Yönləndirici suallarla cavablar istənilən istiqamətə yönləndirilir.

6 Müsahibə transkriptlərində (sitatlarda) dəyişiklik etmək

ƏSL SİTAT

“Mən bu layihənin bəzi hallarda faydalı olduğunu düşünürəm.”

DƏYİŞDİRİLMİŞ SİTAT

“Mən bu layihənin faydalı olmadığını düşünürəm.”

Sitatlardakı sözlər, məna və ya ifadə dəyişdirilərək təqdim edilir.

7 Tədqiqat nəticələrini dəstəkləməyən məlumatları qəsdən gizlətmək



Nəticəni dəstəkləməyən məlumatlar qəsdən gizlədilir.

8 Statistik nəticələri və ya göstəriciləri qəsdən dəyişdirərək təqdim etmək



Nəticəni daha müsbət göstərnək üçün statistik göstəricilər qəsdən dəyişdirilir.

Uydurma və Saxtalaşdırma müqayisəsi

UYDURMA

Məlumat **uydurulur** – mövcud olmayan məlumatlar varmış kimi təqdim olunur.

NÜMUNƏ

tamamilə
Heç bir məlumat yoxdur

Tədqiqatçı tərəfindən yaradılmış saxta məlumat

Respondent ID	Yaş	Xal (test nəticəsi)
101	19	92
102	21	88
103	20	85
104	22	90
105	19	87

AÇIQLAMA
Bu nümunədə tədqiqat aparılmayıb. Respondentlər mövcud deyil və nəticələr tamamilə uydurulub.

SAXTALAŞDIRMA

Mövcud məlumat **dəyişdirilir** – məlumatlar qəsdən dəyişdirilir və ya təhrif olunur.

NÜMUNƏ

Əsl toplanmış məlumat

Respondent ID	Yaş	Xal (test nəticəsi)
101	19	62
102	21	58
103	20	61
104	22	55
105	19	60

Dəyişdirilmiş (təhrif olunmuş) məlumat

Respondent ID	Yaş	Xal (test nəticəsi)
101	19	92 ↑
102	21	88 ↑
103	20	90 ↑
104	22	85 ↑
105	19	89 ↑

AÇIQLAMA
Məlumatlar həqiqətən toplanıb, lakin nəticələr qəsdən dəyişdirilərək daha yaxşı və ya gözlənilən nəticə əldə etmək məqsədilə təhrif edilib.

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

Maraqların toqquşmasının qarşısının alınması

Maraqların toqquşması dedikdə tədqiqatçının şəxsi, maddi, peşəkar və s. maraqlarının onun elmi qərarlarına və ya tədqiqat nəticələrinin obyektivliyinə təsir göstərməsi nəzərdə tutulur.

Maraqların toqquşmaması üçün aşağıdakı məsələlər nəzərə alınmalıdır:

- Tədqiqatda maddi maraqlar açıqlanmalıdır.
- Tədqiqatın sponsorları açıq şəkildə göstərilməlidir.
- Əlaqələr peşəkar və şəffaf şəkildə qurulmaldır.
- Nəticələrə təsir edə biləcək maraqlar barədə redaksiyaya əvvəldən məlumat verilməlidir.
- Qərarlar şəxsi mənfəətə görə deyil, elmi meyarlara əsasən verilməlidir.

Nümunə

Tədqiqatçı yeni bir məhsulun effektivliyini araşdırır. Tədqiqatı maliyyələşdirən şirkətin isə həmin məhsulun satışlarının artmasında maddi marağı var. Belə olduqda, sponsor şirkət tədqiqatçıya obyektiv, qərəzsiz nəticələr əldə etməkdə yaxud paylaşmaqda maneə yarada bilər. Bu halda maraqlar toqquşduğu üçün tədqiqatın nəticələri etibarlı sayılmaya bilər.

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

Müəllif etikası

Müəllif etikası dedikdə elmi işə töhfə verən bütün müəlliflərin ədalətli şəkildə göstərilməsi və başqalarının elmi əməyinə hörmət edilməsi nəzərdə tutulur. Müəllif etikasının pozulmaması üçün aşağıdakı məsələlər nəzərə alınmalıdır:

- Yalnız elmi işə real elmi töhfə verən şəxslər müəllif kimi göstərilməlidir.
- Töhfə verməyən şəxslər müəllif siyahısına daxil edilməməlidir.
- Müəlliflərin sırası qatdıqları töhfəyə uyğun olaraq ədalətli müəyyənləşdirilməlidir.
- Başqasının ideyası, mətni, tədqiqat nəticəsi və s. mənimsənilməməlidir.
- Bütün müəlliflər təqdim olunan işə görə məsuliyyət daşımalıdır.

Nümunə

Tədqiqatın metodologiyasını hazırlayan, məlumatları təhlil edən və məqalənin yazılmasında yaxından iştirak edən tədqiqatçının adı müəlliflər siyahısında göstərilmir. Əvəzində tədqiqatda elmi töhfəsi olmayan bir şəxsin adı müəllif kimi əlavə edilir. Bu, müəllif etikasının pozulması halıdır.

Tədqiqatçılarla bağlı etik qaydalar

1	Könüllü iştirak	İştirakçılar tədqiqata heç bir məcburiyyət olmadan, öz istəkləri ilə qoşulmalıdırlar.
2	Tədqiqatda iştirakla bağlı razılıq	İştirakçılar tədqiqatın məqsədi, prosesi, mümkün risk və faydaları barədə tam məlumat aldıqdan sonra razılıq verməlidirlər.
3	Anonimlik	İştirakçılar haqqında konfidensial məlumatlar toplanmamalı və ya kodlaşdırılaraq istifadə edilməlidir.
4	Məxfilik	Toplanan şəxsi məlumatlar gizli saxlanılmalı və yalnız tədqiqat məqsədləri üçün istifadə olunmalıdır.
5	Məlumatların qorunması	Toplanmış məlumatlar təhlükəsiz şəkildə saxlanılmalı, yalnız tədqiqatçının çıxışı təmin edilməli və məlumatların qorunması qaydalarına əməl olunmalıdır.
6	İştirakçının tədqiqatdan çəkilmə hüququ	İştirakçılara istənilən mərhələdə heç bir səbəb göstərmədən və mənfi reaksiya ilə üzləşmədən tədqiqatdan çıxmaq imkanı verilməlidir.

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

Elmi nəşr etikası

Elmi nəşr etikası elmi məqalə, kitab, konfrans materialı və digər nəşrlərin hazırlanması və yayımlanması zamanı dürüstlük, şəffaflıq və elmi məsuliyyət prinsiplərinə riayət edilməsidir.

Elmi nəşr etikasının pozulmaması üçün aşağıdakı məsələlər nəzərə alınmalıdır:

- Plagiat, uydurma və saxtalaşdırma hallarından qaçınılmalıdır.
- Eyni tədqiqat işi (məqalə və s.) rəyvermə üçün eyni anda bir neçə jurnala göndərilməməlidir.
- Eyni tədqiqat işi (məqalə və s.) yalnız bir jurnaldan geri çəkildikdən sonra digər jurnala göndərilməlidir.
- Eyni tədqiqat işi (məqalə və s.) icazəsiz şəkildə bir neçə nəşrdə təkrar yayımlanmamalıdır.
- Müəlliflər düzgün şəkildə göstərilməlidir.
- Nəşr prosesində məlumatlar gizlədilməməli və ya təhrif edilməməlidir.

Nümunə

Tədqiqatçı eyni tədqiqatın nəticələrini əks etdirən məqaləni eyni vaxtda iki fərqli jurnala göndərir. Hər iki jurnal məqaləni qəbul edir və məqalə cüzi dəyişikliklərlə iki dəfə dərc olunur. Müəllif redaksiyaları əvvəlki nəşr barədə məlumatlandırmır. Bu, təkrar nəşr adlanır və elmi nəşr etikasının pozulması halıdır.

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

“Predatory” (“Yırtıcı”) jurnallar və akademik etika

“Predatory” (“yırtıcı”) jurnallar qazanc əldə etmək məqsədi ilə fəaliyyət göstərən və akademik etikanın əsas prinsiplərinə riayət etməyən şəxta jurnallardır. Bu jurnallarda məqalalərin elmi keyfiyyəti, rəyçi qiymətləndirməsinin obyektivliyi və tədqiqatın elmə verdiyi töhfə lazımi səviyyədə nəzərə alınmaya bilər.

“YIRTICI” JURNALLARIN XÜSUSİYYƏTLƏRİ

- Qazanc əldə etməyi əsas məqsəd kimi görürlər.
- Rəyçilik prosesini formal şəkildə aparır və ya düzgün həyata keçirmirlər.
- Şəffaflıq, dürüstlük və etik prinsiplərə riayət etmirlər.
- Vebsaytlarını qeyri-peşəkar şəkildə hazırlayırlar.
- Elmi dil yerinə marketinq dilindən istifadə edir, “2 günə ödəniş edin, məqaləniz dərhal dərc olunsun” kimi mesajlarla müraciət edirlər.
- Həddindən artıq sürətli qəbul vədləri verirlər.
- Məqalələrin elmi keyfiyyətini və elmə gətirdiyi yeniliyi nəzərə almırlar.
- Vebsaytlarında əhatə dairəsini (scope) göstərmir və ya bir-birindən tamamilə fərqli sahələri qeyd edirlər.
- Redaksiya heyəti haqqında qeyri-dəqiq və ya natamam məlumat yerləşdirirlər.
- Spam e-poçt vasitəsilə kütləvi məqalə dəvətləri göndərirlər.

Tədqiqatçı məqaləsini göndərməzdən əvvəl jurnalın rəyçilik prosesini, nəşr siyasətini və etik qaydalarını, həmçinin mövzunun jurnalın əhatə dairəsinə (scope) uyğunluğunu və jurnalın indekslənmə statusunu yoxlamalıdır.

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. ALLEA – All European Academies. (2023). *The European Code of Conduct for Research Integrity* (Revised ed.). ALLEA. https://doi.org/10.26356/ECOC

2. Beall, J. (2012). Predatory publishers are corrupting open access. *Nature, 489*(7415), 179. https://doi.org/10.1038/489179a

3. Babbi, Ö. (2022). Sosial tədqiqat praktikası (İ. Şahbazov, Tərcümə). TEAS Press. (Orijinal əsər 2021-ci ildə nəşr olunub)

4. Committee on Publication Ethics (COPE). (2019). *Discussion document: Predatory publishing* (Version 1). https://doi.org/10.24318/cope.2019.3.6

5. National Academies of Sciences, Engineering, and Medicine. (2017). *Fostering integrity in research*. The National Academies Press. https://doi.org/10.17226/21896